# Səriştəli jurnalist, xeyirxah dost

## *80 illik ömrün zirvəsindən geriyə baxanda Möhsüm Xəlilovu çox xatirələr göz önünə gətirir*

**Ömrünün 60 ildən çoxunu mətbuatımızın inkişafına həsr etmiş Möhsüm Xəlilovu Muğan-Şirvan bölgəsində səriştəli jurnalist, səmimi insan, xeyirxah dost kimi tanıyırlar. Respublikamızda yüzlərlə jurnalist kadrlarının yetişməsində onun gərgin əməyi var.**

Möhsüm müəllim ömrünün müdriklik çağlarını yaşayır. 80 illik ömrün zirvəsindən geriyə baxanda o çox xatirələri göz önünə gətirir. Elə bu xatirələr bu günlərdə işıq üzü görmüş "İşıq"lı xatirələrim" kitabında öz əksini tapıb. "Şərəf nişanı" ordenli, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Əməkdar jurnalist, "İşıq" qəzetinin ilk və hazırkı baş redaktoru Möhsüm Xəlilov bu kitabda uzun illər çalışdığı kollektiv üzvləri, eləcə də şəhər mətbuatı ilə bağlı xatirələri qələmə alıb.

O, 1935-ci ildə Əli Bayramlı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1959-




cu ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Universiteti bitirdikdən sonra keçmiş Qazıməmməd rayonunda "Kommunizm yolu" qəzetində fəaliyyətə başlamışdır.

1959-cu ilin axırında, Qazıməmməd rayonu ləğv olunduqdan sonra Əli Bayramlıya qayıtmış və 1960-cı ildən Əli Bayramlı rayon Komsomol Komitəsində iki il təlimatçı işləmişdir. Sonra rayon qəzetində fəaliyyətə başlamışdır. Bir neçə aydan sonra qəzet ləğv olunduqda o Sabirabad rayonunda fəaliyyətə başlayan rayonlararası qəzetdə məsul katib işləmişdir.

**1963-cü ildən isə Əli Bayramlı şəhər Partiya Komitəsində əvvəlcə partiya maarifi kabinetinin müdiri, sonra ideoloji şöbə müdiri təyin olunmuşdur.**

Möhsüm Xəlilov 1965-ci ildə Əli Bayramlıda "İşıq" qəzeti fəaliyyətə başlayandan həmin qəzetin redaktoru olub.

1974-cü ilin əvvəlindən şəhər partiya komitəsinin ikinci katibi seçilmiş, 1976-cı ilin sonuna qədər bu vəzifədə çalışmışdır. O, 1977-ci ilin əvvəlindən "İşıq" qəzetində redaktor müavini, 1988-ci ildən həmin qəzetin baş redaktorudur.

**Biz Möhsüm müəllimi 80 illik yubileyi münasibətilə təbrik edir, ona bundan sonra da geniş yaradıcılıq üfüqləri, uzun ömür və möhkəm can sağlığı arzulayırıq.**

**Rasim NƏHMƏDOV**